**AZƏRBAYCAN RESPUBLİKASI**

**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ adına RESPUBLİKA UŞAQ KİTABXANASI**



**Yazıçı, dramaturq**
**Yusif Səmədoğlunun**
**80 illik yubileyi münasibətilə**

# “Unudulmayan Yusif Səmədoğlu”

## (metodiki vəsait)

**B A K I – 2015**

**Redaktor:** **Şəhla Qəmbərova-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtibçi:** **Könül Səmədzadə-F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor:** **Ruhiyyə Məmmədli-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsinin müdiri**

# B Ö L M Ə I:

# HƏYAT VƏ YARADICILIĞI:

Yusif Səmədoğlu Vəkilov Azərbaycan ədəbiyyatının, poeziyasının şah damarlarından biri, qüdrətdən vergili Səməd Vurğunun övladıydı. Onun ailəsində söz anlamış, tərbiyə almışdı. Lakin dövr-zəmanə onu da küsdürüb, qəlbində göynərtili iz qoymuşdu. Səksəkəli yaşamaq minbir əzab-əziyyətdən daha dözülməz, ağır dərddir. Zəmanə mürəkkəb idi, quruluş əsil kökü üstündə dayanmamışdı, laxlayırdı. Hər dəfə də titrəyəndə təmiz adların, əxlaqların, vicdanların, üstünə çirkab çiləyirdi. Neçə-neçə dost-tanışına, həmkarına, qələm yoldaşına haqsız, günahsiz qənim kəsilənlərin zəhmi Səməd Vurgunun evində, ailəsində də aşkar duyulurdu. Bu xof Yusifin də canına üşütmə salardı. Sonralar 60 yaşının tamamında o, yazmışdı: “Gözüqıpıq yaşamaq ölməyə bərabərdir”.

Yusif Səmədoğlu 1935-ci il dekabrın 25-də Bakı şəhərində anadan olmuşdur. Moskvada Yazıçılar İttifaqı nəzdində olan M.Qorki adına Ədəbiyyat İnstitutuna daxil olmuş (1953), həmin İnstitutun IV kursundan ADU-nun Filologiya fakültəsinin beşinci kursuna dəyişilmişdir (1957-1958). "Azərbaycan " jurnalı redaksiyasında ədəbi işçi, nəsr şöbəsinin müdiri (1960-1965), C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kinostudiyanın ssenari redaksiya heyətinin üzvü (1965-1969), baş redaktoru, "Azərbaycanfilm" kinostudiyasının direktor müavini (1969-1976), "Ulduz jurnalının baş redaktoru (1976-1987), "Azərbaycan" jurnalının baş redaktoru (1987-ci ildən) vəzifələrində işləmişdir. Azərbaycan Yazıçılar Birliyi katibliyi heyətinə (nəsr üzrə katib) seçilmişdir (1991).

Yusif Səmədoğlu Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirəndən sonra uzun müddət “Azərbaycanfilm” kinostudiyasinda müxtəlif vəzifələrdə çalışdı. Onun kinostudiyada fəaliyyət göstərdiyi müddət ərzində lentə alınan bədii filmlərin əksəriyyəti indi də maraqla baxılır və hər birinin adı Azərbaycan kino sənəti tarixinə qızıl hərflərlə yazılıb. Xidmətləri ulu öndər tərəfindən dəfələrlə yüksək qiymətləndirilib: 1970-ci ildə komsomol mükafatına layiq görülmüş, on il sonra isə əməkdar incəsənət xadimi fəxri adını almışdı. Yusif Səmədoğlu bənzərsiz insan, yaradıcı ziyalı idi. O, on bir il “Ulduz” jurnalının baş redaktoru, on il “Azərbaycan” jurnalının baş redaktorları vəzifələrində çalışmışdı.

Yusif Səmədoğlu Mirzə Cəlil, Ə. Haqverdiyev ənənəsinə sadiq qalaraq “Qətl günü” romanını yazdı. Bu dərin məzmunlu əsər oxucuların yaddaşında əbədi iz qoydu. Səkksəninci illərin oxucusunun gözləri qarşısında repressiya dövrünün ən dəhşətli, qanlı zülmləri, faciələri canlandı. Əgər Yusif Səmədoğlu “Qətl günü” romanından özgə heç nə yazmasaydı, yenə onun adı ədəbiyyatımızın işıqlı təfəkkür sahibləri arasında çəkilərdi. İllər boyu üzə çıxarmadığı, dönə-dönə işlədiyi əsər müəllifin taleyində mayak kimi yandı, onun yoluna işıq saçdı. Y. Səmədoğlu istedadlı kinossenarist kimi də tanınmışdı. Onun xalq şairi Səməd Vurğunun

"Komsomol poeması"nın əsasında yazdığı "Yeddi oğul istərəm" ssenarisi filmin çəkiliş qrupu tərəfindən sevgiylə qarşılanmışdı. Məşhur ekran əsərində Gəray bəy rolunun ifaçısı, xalq artisti Həsənağa Turabov deyərdi ki, mənim kino yaradıcılığımda ən sevdiyim rollardan biri Gəray bəydir. Həmin rola çəkildiyim üçün Yusif müəllimi həmişə minnətdarlıqla xatırlayıram.

İllər keçdi, Yusif Səmədoğlu ikinci dəfə kədərli, ağır günlər yaşadı. Bu, 1988-ci ildən başlayan meydan hərəkatı zamanı oldu. Ermənilərin törətdikləri qanlı hadisələr çoxları kimi onun da ürəyini sıxırdı. İş yerində, mənzilində rahatlıq tapa bilmirdi. İndiki "Azadlıq" meydanına gələrdi. Gücü, imkanı yalnız ora toplanan vətənsevərlərə sözlə müraciət etməyə, "Öldü var, döndü yoxdur" deməyə çatardı. Mitinq iştirakçıları, dinləyənlər ona inanırdı. Hər fikrini məmnunluqla qarşılayardılar. Ancaq zamanın hokmü başqaymış…

Yusif Səmədoğlu az yazardı. "220 nömrəli otaq", "Qalaktika", "Qətl günü" kitabları işıq üzü görmüşdü. Lakin oxucular ona məhəbbətlə yanaşar, adını hörmətlə çəkərdilər. O, seçicilərinin arzusu ilə millət vəkili seçildi, dövlət başçısının fərmanı ilə xalq yazıçısı fəxri adına layiq görüldü. "Şöhrət" ordeni ilə təltif olundu. Qorxulu, səksəkəli, xoşbəxt, bəxtəvər günlər yaşayaraq gəlib çatmışdı ömrünün 63 yaşına. Böyük şairimiz M.Ə.Sabirin bu misraları dilindən düşmürdü:

***…Bəxti- mənhusimə bax,***

***Mən bu təmənnada ikən,***

***Başladı şişməyə indi***

***Üzü qarə ciyərim.***

Heç demə Yusif Səmədoğlunun sağlamlığından gileyi əbəs deyilmiş. Nəhayət,..Xalq şairi Vaqif Səmədoğlunun onunla əbədi ayrılıq, vida çağında dediklərini xatırlayırıq: "Dünən-1998-ci il avqustun 16-da Səməd Vurğun ailəsi ikinci dəfə çat verdi…Yusif bir azdan atama qovuşacaq-qırx ildən artiq fasilədən sonra. Yusif sevincə, gözəlliyə yaraşan adam idi. Mən bu saat, zərrə qədər tərəddüd etmədən onunla yerimi dəyişərdim. Amma hər kəsin öz alın yazısı, qismət payı var…"

Yusif Səmədoğlu mənalı bir ömür yaşadı. Sevdi, sevildi, mərhəmətini, qayğısını kimsədən əsirgəmədi. Mehriban ailə başçısı, sədaqətli dost, ürəklərdə özünə əbədilik qazanan yazıçı idi. Elə bu səbəbdən də onu tanıyanlar, heç üzünü görməyən, amma əsərlərini məhəbbətlə oxuyanlar deyirlər: anım gününüz mübarək, Yusif müəllim!

# B Ö L M Ə II:

## YUBİLEY TƏDBİRLƏRİNİN KEÇİRİLMƏSİ:

Xalq yazıçısı Yusif Səmədoğlu XX əsr Azərbaycan ziyalılığının ən ali keyfiyyətlərini öz şəxsiyyətində daşıyan, mənsub olduğu nəsli təmsil edən bir insan olmuşdur. O, həyatı boyu, həm ədəbi, həm də ictimai-siyasi fəaliyyətində azərbaycançılıq mövqeyində durmuş, azadlıq, demokratiya, müstəqillik duyğusu ilə yaşamışdır.

Y.Səmədoğlu XX əsr Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutaraq, həyata, gerçəkliyə fərqli münasibəti, dünyagörüşü ilə seçilmişdir. Millilik, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, milli mədəniyyətin, milli əxlaqın gənc nəslə çatdırılması baxımından onun əsərlərinin dəyəri və ibrət dərsləri güclüdür.

Y.Səmədoğlu azad, müstəqil və mədəni həyat yolu keçmişdir. Onda milli hiss, Vətən sevgisi güclü idi. O, həyati mövzular yazmış, zamanın nəbzini tutaraq günün mühüm məsələlərinə toxunmuş, mənəvi-ictimai problemləri ön plana çəkmiş, dövrün, yaşadığı mühitin eybəcərliklərini ifşa və tənqid hədəfinə çevirmişdir. Onun əsərləri azərbaycançılıq ideyası əsasında qurulduğundan hər dövr üçün aktual səslənir. Məlumdur ki, xalqın milli-fəlsəfi fikri öz əksini bədii ədəbiyyatda tapır. Milli xüsusiyyətlərin, milli keyfiyyətlərin, milli ruhun, adət-ənənələrin yaşanmasında bədii ədəbiyyatın böyük rolu vardır. Bu baxımdan Y.Səmədoğlunun əsərlərində milli ideyanın təlqin və təbliği güclüdür. O, hələ sosializm cəmiyyətinin, avtoritar rejimin ən şiddətli çağlarında sovet ideologiyasının prinsiplərinə zidd olan əsərləri ilə seçilmiş, bu quruluşun formalaşdırdığı insanların faciəsini əks etdirmişdir.

Y.Səmədoğlunu həmişə xalqın taleyi, mənəviyyatı düşündürdüyündən onun əsərləri xalqın ürəyinə yol tapmış və bu əsərlər Y.Səmədoğlunun görkəmli Azərbaycan yazıçısı kimi tanınmasına və xalq tərəfindən sevilməsinə gətirib çıxarmışdır. O, əsərlərində Azərbaycan həyatının mənəvi-ictimai-əxlaqi problemlərini açıb göstərmiş, milli keyfiyyətlərimizi nümayiş etdirmiş, əsas bir ideyanı ortaya qoymuşdur-bu da Azərbaycana, onun mənəvi dünyasına, mədəni sərvətlərinə sevgidir.

Beləliklə, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri Yusif Səmədoğlunun bu il 80 illik yubileyi qeyd olunur. 60-cı illərin ədəbi mühitində yetişən, poeziya və nəsrimizə yeni ruh və nəfəs gətirən, yazarlar arasında özünə məxsus üslubu ilə seçilən Yusif Səmədoğlunun Azərbaycan ədəbiyyatının inkişafında fərqli yeri var. Elə bu üslubla da tanış olmaq üçün gəlin, Yusif Səmədoğlu yaradıcılığına bir daha nəzər salaq.

Yusif Səmədoğlunun yaradıclığı ilə yaxından tanış olmaq üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanasında tədbirlər planı hazırlanmışdır. Tədbirlər planının geniş və maraqlı olması üçün ilk növbədə kitabxanada sərgi təşkil olunmalıdır. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn:

“Unudulmayan Yusif Səmədoğlu”, “Nağıla bənzər ömür”, “Yusif Səmədoğlu-80” və s.

“Yusif Səmədoğlu-80” adlı sərginin nümunəsini veririk.

Başlıq: “Yusif Səmədoğlu-80”

1. Kitablarının nümayişi.
2. Görkəmli insanların Yusif Səmədoğlu haqqında söylədikləri sitatlar.
3. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.















Sitatlar:

1. "Yusif cəmiyyətimizə təkcə yazıçı kimi, mədəniyyət xadimi kimi yox, eyni zamanda görkəmli ictimai-siyasi xadim kimi daxil olubdur. Azərbaycanın həyatı üçün və xüsusən son illərdə Azərbaycanda milli azadlıq hərəkatının inkişafı üçün, xalqımızda milli dirçəliş, milli oyanış hisslərinin yaranması və inkişafı üçün, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə üçün onun fəaliyyəti çox əhəmiyyətli, çox gərəkli olmuşdur".

   Heydər Əliyev
   Ümummilli lider

2. Vaxtsız ölüm onu bizdən ayırsa da, bir həqiqət əbədi yaşayır ki, öz sözünü, möhürünü zamana vura bilən hər kəs yaşayır və öz xalqına həmişə başucalığı gətirir.

   Mehriban Əliyeva
   Heydər Əliyev Fondunun prezidenti

3. Yusif Səmədoğlu xalqın tarixi yaddaşını, mənəviyyatını uca tutaraq, əsərlərində milli və bəşəri dəyərləri məharətlə əks etdirmişdir.

   Leyla Əliyeva
   Heydər Əliyev fondunun Rusya filialının rəhbəri

4. Yusif Səmədoğlu böyük sözün yazıçısı (və müəllifi), böyük intellektin adamı (və sahibi) idi-hekayələri, publisistik qeydləri, məqalələri, müsahibələri, xüsusilə "Qətl günü" romanı Azərbaycan ədəbiyyatı tarixində məhz ədəbiyyatın sözü kimi qalacaq...

   Nizami Cəfərov
   Filologiya elmləri doltoru, professor

5. Yusif Səmədoğlunun vəfatı hamı kimi məni də dərindən sarsıtdı. Yüzlərlə, minlərlə, onminlərlə Azərbaycan oxucusu necə böyük bir insanı və sənətkarı itirdiyini dərk elədi.

   Vaqif Yusifli
   Filologiya elmləri doktoru

6. "Yusif az yazdı, ancaq gözəl yazdı. Təsəllimiz onun yaradıcılığı, əsərləridir. Yusifsiz keçən hər bir gün onun böyüklüyünü, nadir insanlardan olduğunu sübuta yetirir. Onun yoxluğu bizim hər birimizin qəlbimizi ağrıdır".

   Anar
   Xalq yazıçısı

7. Yusif Səmədoğlu mənalı ömür yaşadı. Sevdi, sevildi, mərhəmətini, qaygısını kimsədən əsirgəmədi. Mehriban ailə başçısı, sədaqətli dost, ürəklərdə özünə əbədilik qazanan yazıçı idi. Elə bu səbəblərdən də onu tanıyanlar, heç üzünü görməyən, amma əsərlərini məhəbbətlə oxuyanlar deyirlər: anım günün mübarək Yusif müəllim!

Telman Mehdixanlı
Jurnalist

Yuxarida qeyd etdiyimiz kimi, bu günlərdə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Yusif Səmədoğlunun 80 illik yubileyi qeyd olunur. Yusif Səmədoğlunun yaradıcılığı ilə yaxından tanış olmaq üçün F. Köçərli adına Respublika Uşaq Kitabxanasında kitab müzakirəsinin keçirilməsi daha məqsədəuyğundur. Kitab müzakirəsində yazıçının bir sıra kitablarını oxucuların müzakirəsinə vermək olar. Lakin biz bu gün Yusif Səmədoğlunun ən çox sevilən və təbliğ olunan kitablarından olan "Qətl günü" romanının müzakirəsini keçirəcəyik. Tədbirə bir çox yazıçı və şairləri, tənqidçiləri, ədəbiyyatşünasları və oxucuları dəvət etmək olar. Kitabxanaçı tədbirdə iştirak edən qonaqlara söz verir.

"Dərd də azar kimi gələndə batmanla gəlir". "Qətl günü" romanı bu fraza ilə başlayır. "Dünya duracaq yer deyil, ey can səfər eylə" (Nəsimi). Yusif Səmədoğlunun bu məşhur romanı dünya və insan haqqındadır. Dünyada isə əsrlərdir ki, lokal və qlobal müharibələr, hakimiyyət uğrunda amansız çarpışmalar, ölüm-dirim savaşları baş verir-"Dünya yaşıyor hərb ilə qovğalar içində" (M.Hadi). Tanrının yaratdığı insanlar bir-birinə qənim kəsilirlər. "Yalnız deyil insanlara, vəhşilərə sorsan, Onlar belə insandakı vəhşiliyə heyran" (H.Cavid). Bəşəriyyət tərəqqiyə, svilizasiyaya doğru irəliləyir, insan zəkasının yaratdığı nəsnələr çox şeyi dəyişdirir, ancaq insandakı əzəli-əbədi xasiyyətlərin bir çoxu dəyişilməz qalır. Dünya yenə gücün, zorun, mənəm-mənəmliyin, işğalçı müharibələrin cəngində inləyir. "Qətl günü" romanı bu mənada bir çağırış-haray təsiri bağışlayır. İnsan həyatındakı ahəngdarlıq, ritm və harmoniya pozulanda o, nəfsin, tamahın və qəbahətin qulu olur.



Romanda əbədi Xeyir-Şər mübarizəsi ortaya qoyulub. Bu mübarizə bəlkə elə dünyanın yaranışından üzü bəri gələ-gələ bitmək bilmir. İctimai quruluşlar, cəmiyyətlər və saysız-hesabsız insan nəsilləri bir-birini əvəz edir, amma mübarizə davam edir. Hər dövrün, hər epoxanın, bəlkə də hər günün öz Hörmüzü və Əhriməni olmuşdur. Bu ədəbi döyüşdə Şər həmişə güclü olmuş, amma bəşəriyyət Xeyirə, İşığa inam bəsləmişdir. "Qətl günü" də bu mənada istisna deyil və bu mövzu Xeyir-Şər mübarizəsi onun da başlıca konflikti kimi müəyyənləşə bilər. Əbədi Xeyir və Şər mübarizəsini üç zaman hüdudunda açıqlayan müəllif sanki belə bir fikri təlqin edir: bütün zamanlarda Şər daimi fəaliyyətdə və hərəkətdə olmuşdur. Lakin hər dəfə və zamanın hər bir pilləsində onun mübarizə formaları öz müxtəlifliyilə seçilib...

"Qətl günü" romanı barədə söz açan müəlliflər təbii ki, bu əsərin Azərbaycan nəsrində maraqlı bir ədəbi hadisə olduğunu qeyd etmişlər. Xalq yazıçısı Anar əsər haqqında demişdir: Mənim fikrimcə, bu romanın meydana çıxması ədəbi fakt çərçivəsindən qat-qat böyük əhəmiyyətə malikdir. "Qətl günü" müasir ədəbiyyatımızın həqiqət günüdür". Y. Səmədoğlu yeni tipli Azərbaycan romanı yaratmışdır. Və bu roman tipinə görə də çoxçalarlıdır. Ona mifoloji roman deyənlərə də, fəlsəfi-psixoloji roman söyləyənlərə, tarixi roman kimi dəyərləndirənlərə də haqq qazandırırıq. Bir sözlə "Qətl günü" aydın, özünəməxsus, və son dərəcə milli bir əsərdir, bununla yanaşı, həm də ümumbəşər əhəmiyyəti kəsb edir.

"Qətl günü" müdrik bir kitabdır. Bu kitab müəllifinin yaratdığı resensiyasının dar çərçivəsinə sığışan şey deyil. Öz dərinliyi, gerçəkliyi, ümumləşdirmək qüvvəsi və estetik keyfiyyətinə görə bu roman daha əsaslı təhlillər və araşdırmalar tələb edir.

"Qətl günü" Yusif Səmədoğlunun da, yeni nəsrimizin də zirvə əsəridir. Çağdaş romançılıq axtarışlarının ən uğurlu nəticələrini özündə əks etdirən "Qətl günü" yüksək hümanist pafosla yazılan və işıqlı, xoş duyğular oyadan əsərdir.

Yazıçı Yusif Səmədoğlunu oxuculara yaxından tanıtmaq və sevdirmək üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanasında ədəbi-bədii gecənin keçirilməsi daha vacibdir. Tədbir iki hissədən ibarət olur. Tədbirə bir çox şair və yazıçıları, ədəbiyyat müəllimlərini və s. dəvət etmək olar. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbirin birinci hissəsi şairin yaradıcılığı ilə bağlı çıxış və məruzələrlə başlayır. İkinci hissədə isə yazıçının qələmə aldığı roman və povestlərindən parçalar səsləndirilir."Nə xoşbəxtdir sevərək yaşayanlar, sevilərək ölənlər" adlı ədəbi-bədii gecənin ssenarisini nümunə üçün veririk. Səhnədən Yusif Səmədoğlunun portreti asılır. Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir. Aparıcılar səhnəyə daxil olur:

**I Aparıcı:** Yusif Səmədoğlu 1935-ci il dekabrın 25-də Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 44 saylı şəhər orta məktəbini bitirdikdən sonra, Moskvada Yazıçılar İttifaqı nəzdində olan M.Qorki adına Ədəbiyyat İnstitutuna daxil olur (1953). Həmin institutun dördüncü kursundan sənədlərini ADU-nun filologiya fakültəsinin beşinci kursuna dəyişmişdir (1958-1959). Yusif Səmədoğlu "Azərbaycan" jurnalı redaksiyasında ədəbi işçi (1959), nəsr şöbəsinin müdiri (1960-1965), C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında kinostudiyanın ssenari redaksiya heyətinin üzvü (1965-1969), ssenari redaksiya heyətinin baş redaktoru, "Azərbaycanfilm" kinostudiyasının direktor müavini (1969-1976), "Ulduz" jurnalının baş redaktoru vəzifələrində çalışmışdır (1987-ci ildən).

Yusif Səmədoğlu 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan komsomolu mükafatı laureatı (1970), Azərbaycan Əməkdar İncəsənət xadimi (1980), Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990) olmuşdur.

Dövri mətbuatda vaxtaşırı çıxış etmiş Yusif Səmədoğlunun "Yeddi oğul istərəm..." ssenarisi əsasında film çəkilmişdir. Ona "Qətl günü" romanına görə SSRİ Yazıçılar İttifaqının mükafatı verilmişdir (1987).

Yusif Səmədoğlu 1998-ci il avqustun 17-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

**II Aparıcı:** Həyatda elə insanlar var ki, onların ölümü cismani ömrün sonu kimi mənalanır. Amma əsl həyat bundan sonra başlayır. O insan aylar, illər, əsrlər keçdikcə hər yeni nəsil üçün yenidən doğulur və beləliklə, o insan məzarıstanın yox, əbədiyyətin qonağı olur. Böyük Azərbaycan yazıçısı Yusif Səmədoğlu da belə insanlardan biridir.

O, Azərbaycanın XX əsrdə yetirdiyi, lakin şöhrəti sonrakı əsrlərə də gedib çıxacaq, heç bir zaman unudulmayacaq böyük şairimiz Səməd Vurğunun ailəsində dünyaya gəlmişdi, bu ailənin ilk övladı idi. Deyirlər ki, Yusif Səmədoğlu zahirən öz atasına çox oxşayırdı. Amma Yusif Səmədoğlu atasına nə qədər oxşasa da, öz taleyini yaşamışdır. Onlar XX əsrin bir-birindən fərqli iki zaman qütbündə ömür sürmüşlər. 1956-cı ildə, 50 yaşını təzəcə adlamış Səməd Vurğun artıq illər boyu çəkdiyi mənəvi əzablardan, açıq və gizli təqiblərdən "qazandığı" xərçəngdən vəfat etdi. Bu zaman Yusif Səmədoğlunun iyirmi bir yaşı hələ tamam olmamışdı.

Səməd Yusif oğlu həyatında çox-çox uğurlar, fəxri mükafatlar və ən başlıcası xalqın böyük məhəbbətini qazanmışdı, həm də, öncə dediyimiz kimi başı müsibətlər, bəlalar çəkmişdi, o böyük şöhrət pyedestalına da bu uğurlar və müsibətlərlə birgə yüksəlmişdi. O, uşaqkən atasını, sonra anasını itirmişdi. Bəy oğlu idi, amma yeni quruluş ona bəy kimi yaşamağa heç macal vermədi, o, komsomolçu oldu.

Şeir aləmində çox tez parladı. Azərbaycan sovet şeirinin liderlərindən biri oldu. Qorxulu illər idi. Cavid, Müşfiq, Əhməd Cavad onlarla gözəl ziyalılar sürgünlərdə məhv oldular, güllələndilər. Səməd Vurgun isə yaşaya-yaşaya bu sürgünlərdən keçdi.

1956-cı ildə, Səməd Vurğun vəfat edəndə, dövr, zəmanə artıq mülayimləşmişdi. Moskvada, Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda təhsil alan Yusif Səmədoğlu sonuncu kursu Bakıda ADU-nun filologiya fakültəsində təhsilini başa çatdırdı. Sonra qəzet və yurnalllarda əməkdaşlıq elədi, sonra kinostudiya, "Ulduz" və "Azərbaycan" jurnallarında baş redaktor, sonra isə Yazıçılar İttifaqının birinci katibi, Milli Məclis...Amma harada işləyir-işləsin, Yusif Səmədoğlu atasından gələn bir xətti-azərbaycançılığı, vətənçilik ideyasını həm əsərlərində, həm də ictimai fəaliyyətində başlıca meyara çevirdi.

**I Aparıcı:** Ölümündən sonra Yusif Səmədoğlunun "Deyilənlər gəldi başa" kitabı çapdan çıxdı. Bu kitabda Yusif Səmədoğlunun demək olar ki, bütün nəsr yaradıcılığı öz əksini tapır. Yusifin 14 hekayəsi, "Qətl günü" romanı və bir də "Deyilənlər gəldi başa" bitməmiş romanı bu kitabdadır. Sayca az, amma sambalca gözəl əsərlər. Bəli, o, az yazırdı. Özü də istəyəndə yazırdı, istəməyəndə yox... amma elə yazmadığı illərdə də heç kəs onun istedadlı olduğuna qətiyyən şübhə eləmirdi.

Yusif Səmədoğlu "Qanlı çörək" adlı ilk hekayəsini qələmə alanda hələ onuncu sinifdə oxuyurdu. Bəlkə də Səməd Vurğunun ən qəribə, ən sevimli günlərindən biri idi o gün. O gün Səməd Vurğunun sənətdəki ilk övladı dünyaya göz açmışdı. O gün Azərbaycan ədəbiyyatına öz taleyi, öz səsi, öz sözü olan sənətkar gəlmişdi.

"220 nömrəli otaq", "Qalaktika" kitabları, "Astana", "İncə dərəsinin yaz çağı" hekayələri, "Qətl günü" romanı, ssenarilər, məqalə və publisistik qeydlər Y. Səmədoğlu yaradıcılığını kəmiyyətcə əks etdirir.

Bədii keyfiyyətə, sözün potik çəkisinə, sənətin ictimai pafosuna gəldikdə isə Y. Səmədoğlu yaradıcılığı kifayət qədər əhatəli, dolğun təhlil üçün zəngin material verir.

*Oxucular səhnəyə daxil olur Yusif Səmədoğlunun "Saat işləyir" hekayəsindən bir parçanı nümayiş etdirirlər.*

Gülsabah arvad işığı keçirib nəvəsinin yanına girərdi. Elçin isə o saat qarını söhbətə tutar, gah Şah Abbasın nağılını, gah da Molla Nəsrəddindən danışmasını xahiş edərdi. Gülsabah avrad da əlacsız qalıb yadına düşdüyü vaxt Şah Abbasdan, ya Molla Nəsrəddindən, yadına düşmədiyi vaxt isə özündən bir şey uydurub danışardı...

Bu axşam da belə oldu. Gülsabah arvad yay yorğanını üstünə çəkən kimi Elçin ona tərəf döndü, başını yastıqdan qaldırıb qarının gözlərinin içinə baxdı və pıçıltı ilə soruşdu:

**Elçin: Nənə, Şah Abbasdan danışacaqsan?**

**Nənə: Yat, ay gədə, qoy dincəlim!**

**Elçin: Nənə, sən canın, danış da.**

**Nənə: Ay gədə, dedim yat! Başım ağrıyır.**

**Elçin arxası üstə çevrildi, başının üstündəki pəncərədən görünən ulduzlu göyə baxıb pıçıltı ilə yenə nənəsini çağırdı:**

**Elçin: Nənə, ay nənə!**

**Nənə: Hm...**

**Elçin: Nənə, ulduz nədi?**

**Nənə: Ulduz ulduzdu. Yanır orda.**

**Elçin: Nənə, ay nənə!**

**Nənə: Hm...**

**Elçin: Nənə, bəs o gün deyirdin göydə mələklər də var. Bəs onlar neynirlər?**

**Nənə: Mələklər? Mələklər uçur.**

**Elçin: Bəs yorulanda yatmağa hara gedirlər?**

**Nənə: Hara? Hm...Nə bilim hara? Ulduzların üstünə qonurlar.**

**Elçin: Bəs yanmazlar?**

**Nənə: Di yat, yat!..Gülsabah arvad sag böyrü üstə dönüb ufuldadı.**

**Elçin: Nənə, ay nənə!**

**Nənə: Hıım!..**

**Elçin: Nənə, göydə daha heç kim olmur?**

**Gülsabah arvad nədənsə ah çəkdi və ani süküutdan sonra cavab verdi:**

**Olur. Adam öləndən sonra ruhu göydə uçur.**

**Gülsabah arvadın bu sözlərindən sonra Elçinin bədəninə üşütmə gəldi. O, tez yorğanını çənəsinə çəkdi, nənəsinin kürəyinə qısıldı.**

**Elçin: Nənə, onda atamın da ruhu göydədir hə?**

**Gülsabah arvad cavab vermədi. Arxası üstə çevrilərək yorğanın altından Elçinin yumşaq əlini sıxdı və üzünü nəvəsinin saçlarına sürtdü.**

**Xeyli keçdi. Elçini yuxu apardı. Gülsabah arvad isə adəti üzrə "Allah, sən balamı hər bəladan saxla" deyə pıçıldadı...**

**II Aparıcı:** Əziz tədbir iştirakçıları! Beləliklə, bu gün biz Yusif Səmədoğlu yaradıcılığına bir daha nəzər saldıq. Onun dərin məzmunlu, kamil üslubla yazılmış əsərlər ilə tanış olduq və bir daha əmin olduq ki, onun qələmindən çıxmış hər bir əsər nə qədər dəyərli və qiymətlidir. Bəli, vaxtsız ölüm onu bizdən ayırsa da, bir həqiqət əbədi yaşayır ki, öz sözünü, möhürünü zamana vura bilən hər kəs yaşayır və həmişə başucalığı gətirir.

Ölüm sevinməsin qoy, ömrünü vermir bada,

El qədrini canından daha əziz bilənlər,

Şirin bir xatirə tək qalacaqdır dünyada

Sevərək yaşayanlar, sevilərək ölənlər.

**Ə d ə b i y y a t   s i y a h ı s ı:**

**İnternetdə: www. Google.az**

1. **Y. Səmədoğlu. Seçilmiş əsərləri. B.: "Şərq-Qərb", 2005.-320 s.**
2. **Y. Səmədoğlu. Deyilənlər gəldi başa. B.: "Avrassiya Press", 2012.-436 s.**
3. **Y. Səmədoğlu. Deyilənlər gəldi başa. B.: "XXI"-Yeni Nəşrlər Evi, 1999.-344 s.**
4. **Y. Səmədoğlu. Qalaktika. B.: Gənclik, 1973.-54 s.**
5. **Y. Səmədoğlu. Qətl Günü. B.: Yazıçı, 1987.-184 s.**
6. **Yüz il də Vurğuna Xavər yar olsun ! B. : Nurlan, 2007. - 229 s.**